# Assoc. Prof. EMİLİYA QASIMOVA

## Личная информация

**Электронная почта:** emiliya_gasimova@unec.edu.az
**Web:** https://avesis.unec.edu.az/emiliya_qasimova

## Биография

Emiliya Vəli qızı Qasımova 1981-ci ildə Bakı şəhərində anadan olmuşdur,azərbaycanlıdır.1998-ci ildə Bakı şəhəri Rüfət Məmmədov adına 269 saylı orta məktəbi bitirmişdir.1998-ci ildə Xarici Dillər İnstitutuna daxil olmuş 2002-ci ildə Azərbaycan Dillər Universitetini bitirmişdir.2005-ci ildə magistraturanı fərqlənmə diplomu ilə bitirmişdir.2005-2008ci ilə qədər Nərimanov rayonu Gültəkin Əsgərova adına 200 saylı orta məktəbdə İngilis dili müəllimi vəzifəsində işləmişdir.2005-2024ci illərdə Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyində müəllim vəzifəsində işləmişdir.2008-ci ildə AMEA-Nəsimi adına dilcilik institutunun disertanti olmuşdur.2013-cü ildə "Bədii tərcümədə antroponim və toponimlərin transliterasiyası" mövzusunda namizədlik dissertasiyasını mudafiə etmişdir.23 yanvar 2015-ci il tarixli (protokol №03-k)qərarı ilə E.V.Qasımovaya filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi verilmişdir. 19 illik elmi pedoqoji staja malikdir.2008-ci ildən Azərbaycan Dövlət İqtisad Universitetinin <<Xarici dillərin tədrisi >>mərkəzində ingilis dili müəllim vəzifəsində calışır. 2017 ci ildə baş müəllim vəzifəsinə təyin edilmışdir . 20 aprel 2022 ci ildən dosent vəzifəsinə təyin edilmişdir.26 elmi məqalənin ,iki kitabin müəllifidir.Beynəlxalq və respublika səviyyəli elmi-praktik konfranslarda daim fəal iştirak edir.Web of science jurnalında "How to read quickly and effectively "mövzusunda məqaləsi çıxıb.

2023 cü il 22-26 Oktyabr tarixlərində Fransanın Paris şəhərində **SUBJECT İMPORTANCE OF NEW ECONOMIC TERMS IN AZERBAIJANI AND ENGLISH** mövzusunda beynəlxalq konfransda iştirak etmşdir.

2023-cü il 8-10 Noyabr tarixlərində Türkiyənin Rizə şəhərində **5th İNTERNATİONAL ACTİVİTİES TO STRENGTHEN STUDENTS PRACTİCAL SPEAKİNG SKİLLS .**

2023 –cü il 2iyun tarixində **İGEDER (İstanbul Gönüllü Eğitimçilər Derneği )tərəfindən təşkil edilmiş Ünsiyyət Mühiti və Effektiv Tədrs** təlimində iştirak etmişdir.

2024 cü il 19-21 Yanvar tarixlərində İspaniyanın Valensiya şəhərində **HOW BEST OVERCOME SPEAKING DIFFICULTIES** mövzusunda beynəlxalq konfransda iştirak etmişdir.

Fəal müəllim Beynəlxalq təcrübənin müasir tətbiqləri seminarında,Tələbə nailiyyətlərinin artırılması yönümlü müasir tədris metodları mövzusunda, Bakı Slavyan Universitetinin Ümummilli Lider Heydər Əliyevin anadan olmasının ildönümünə həsr olunmuş "Azərbaycanşünaslığın aktual problemlemləri" ll Beynəlxalq elmi konfransda , Speaking barriers webinarında ,**Paris –Sorbone** Univerisitetinin "İnteractive Education in University System" training və s seminarlarında iştirak etmişdir.

Emiliya Qasımova bir neçə dəfə açıq dərs vermiş, kafedranın və departamentin təşkil etdiyi seminarlarda ,ingilis dilinin tədrisi metodikasına həsr edilmiş nəzəri-metodoloji və praktik konfranslarda çıxış etmişdir.

Emiliya Qasımova işlədiyi  müddət ərzində özünü nizam intizamlı , calışqan bir müəllim kimi göstərmiş, universitetin və fakultənin ictimai həyatında fəal iştirak etməklə professor –müəllim və tələbə heyətinin hörmətini qazanmışdır.

F.f.dok.Emiliya Qasımova ixtisas fəni üzrə proqramların metodik göstərişlərin tərtib edilməsində fəal iştirak edir.

### **Метрики**